# Böyük məktəbəqədər yaşlı uşaqlarda idrak maraqlarının inkişafı psixoloji-pedaqoji problem kimi

**Pərişan Həsənova**
*pedaqogika üzrə fəlsəfə doktoru,*
*ADPU-nun baş müəllimi*
**E-mail:** perisanhesenova@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. G.V. Sultanova,
ped.ü.f.d., dos. F.M. Allahverdiyeva

**Açar sözlər:** məktəbəqədər dövr, idrak sahəsi, idrak maraqları, qabiliyyət, fəaliyyət
**Ключевые слова:** дошкольный период, область мышлении, интересы мышлении, умение, деятельность
**Key words:** pre-school time, interests of area, reason, ability, activity

Hazırda təhsilin bütün pillələrində olduğu kimi məktəbəqədər təhsil sahəsində də köklü dəyişikliklər həyata keçirilməkdədir. Bu dəyişikliklər dövlət tərəfindən təsdiq olunmuş sənəd olan məktəbəqədər təhsil proqramında (kirikulum) öz əksini tapmışdır. Bu sənəd Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"na əsasən hazırlanmışdır. Sənədə əsasən uşaqların inkişafı dörd inkişaf sahəsi üzrə müəyyən olunmuşdur. İnkişaf sahələrindən biri olan idrakın inkişafı məktəbəqədər yaşlı uşaqlarda onlarda öyrənməyə həvəs və maraq formalaşdırır. Kurikulumda qeyd olunduğu kimi, məktəbəqədər yaşlı uşağın idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunluq və həyatda tətbiqetmə mühüm şərt hesab olunur. İdrakın inkişafında uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə edir, bu istiqamətdə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumiləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək qabiliyyəti nümayiş etdirir. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyasını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir.

Uşağın ümumi inkişafı və şəxsiyyətinin formalaşmasında idrak fəaliyyətinin əhəmiyyəti danılmazdır. İdrak fəaliyyətinin təsiri altında bütün şüur prosesləri inkişaf edir. İdrak yalnız fikri proseslərin deyil, şüurlu fəaliyyətin bütün proseslərinin məcmusu kimi fikri əməliyyatların fəallığını tələb edir.

İdrak fəaliyyəti prosesi uşaqlardan kifayət qədər əqli güc və gərginlik sərf olunmasını tələb edir. İntellektual əməliyyatların həyata keçirilməsinə hazırlıq lazımi dərəcədə olmadığı üçün buna hər bir uşaq nail ola bilmir. Ona görə də mənimsəmə problemi yalnız bilikləri əldə etmək deyil, uzunmüddətli davamlı diqqət, əqli güc gərginliyi və iradi səy tələb edən prosesdir.

Müasir pedaqoq və psixoloqların məktəbəqədər yaşlı uşaqların təliminin müxtəlif aspektlərinin öyrənilməsinə yönələn tədqiqatları göstərir ki, uşaqların intellektual inkişafının məhsuldarlığı bütövlükdə yalnız təlim prosesindən, biliklərin verilməsindən deyil, eyni zamanda bu ikitərəfli prosesdə əks-əlaqədən, uşağın öz mövqeyindən, onun fəallığından da çox asılıdır.

Uşaqların maraq və qabiliyyətləri anadangəlmə olmur. Onlar idraki və yaradıcı-məhsuldar fəaliyyətdə özünü büruzə verir və formalaşır. Bu vərdişlərin və qabiliyyətlərin özünü büruzə

verməsi üçün uşaqların nəyəsə maraq və meyillərini daha erkən yaşdan dəstəkləmək zəruridir. Elə şərait yaratmaq lazımdır ki, uşaq bu prosesdə maraqlandıqları ilə rastlaşsın və öyrəndiklərini fəaliyyətində tətbiq etsin.

İdrak marağı – idraki tələbat və onun təsiri ilə reallaşan idraki fəaliyyətdir. İdraki maraq hər bir uşağa məxsusdur, lakin onun dərəcəsi və istiqaməti bütün uşaqlarda eyni deyil.

İdrak maraqlarının inkişafı yeni bilik və bacarıqların əldə edilməsini nəzərdə tutur. Uşaq bağçasında keçirilən məşğələlər müxtəlif intellektual bilik və bacarıqların əldə edilməsinə istiqamətlənir.

M.İ. Lisinanın fikrinə görə, idraki fəallığın inkişafı və formalaşmasının həlledici amili uşağın böyüklərlə - pedaqoqla və valideynlərlə ünsiyyətidir. Bu prosesdə uşaq bir tərəfdən hadisələrə, əşyalara fəal maraqlı münasibət nümayiş etdirir, digər tərəfdən – öz davranışını idarəedən üsulları mənimsəyir, yeni situasiyalarda təqdim edilmiş məsələlərin həllində çətinlikləri aradan qaldırır.

İdrak marağının inkişafının əsasını uşağın praktik və tədqiqatçılıq fəaliyyəti təşkil edir. Bu cür idrak proseslərinin müvəffəqiyyətlə yekunlaşması faktı birinci dərəcəli əhəmiyyət kəsb edir. Bu yolla rəngarəng emosiyalarla yeni biliklər əldə edilir.

İdraki hərəkətlərin təşkili uşağın artıq inkişaf etmiş tələbatlarına, hər şeydən əvvəl onun böyüklərlə ünsiyyətə olan tələbatına – hərəkətlərinin, davranışlarının fikirlərinin və düşüncələrinin böyüklər tərəfindən dəstəklənməsinə söykənməlidir.

Hər şeylə maraqlanmaq və idraki maraqların tərbiyəsi əqli tərbiyənin ümumi sistemində - məşğələlərdə, oyunlarda, əmək təlimində, ünsiyyətdə həyata keçirilir və heç bir xüsusi məşğələ tələb etmir. Marağın inkişafının əsas şərti uşaqların ətrafda baş verən hadisələrlə geniş tanışlığı və onlarda fəal, maraqlı münasibətin tərbiyə edilməsidir.

Uşağın maraqları və qabiliyyətləri anadangəlmə olmur, onlar idraki və yaradıcı-məhsuldar fəaliyyət prosesində özünü büruzə verir. Meyil və maraqların, qabiliyyətlərin inkişaf etdirilməsi üçün uşağı erkən yaşdan dəstəkləmək zəruridir. Elə situasiyalar yaratmaq lazımdır ki, burada uşaq maraqlandıqları ilə rastlaşsın və bunları fəaliyyətində əks etdirsin. Məsələn, balaca oğlanı quşların xarici görünüşü, davranışı, müxtəlifliyi maraqlandırır. Buna görə də valideynlərə məsləhət vermək lazımdır ki, uşağa quşlar haqqında kitab oxusun, şəkillər göstərsin, təbiətdə onları müşahidə etdirsin.

Uşaqlara fərdi yanaşma çox vacib şərtdir. Utancaq, cəsarətsiz uşaqların ətrafda baş verənlərə maraq göstərməməsinə səbəb onların laqeydliyi deyil, özlərinə əminliyinin olmamasıdır. Onlara xüsusi diqqət göstərmək lazımdır: maraqlarını vaxtında aşkar etmək, səylərini dəstəkləmək, uğur əldə etməyə kömək etmək, başqa uşaqlarla xeyirxah münasibətlər qurmağa sövq etmək və s.

Hər bir uşağa həssaslıq və diqqət göstərməklə tərbiyəçi onun fərdi xüsusiyyətlərini nəzərə alır. Çünki hər hansı pedaqoji təsirə reaksiya uşaqların fərdi xüsusiyyətlərindən asılıdır. Tərbiyəçi-pedaqoq uşağın məktəb təlimində yeni şəraitə alışması üçün maneçilik törədən davranış çatışmazlıqlarını, bəzi neqativ cəhətləri vaxtında aradan qaldırır.

Fleqmatik, xolerik, sanqvinik, melanxolik uşaqlara müxtəlif yanaşmalar tələb olunur. Qarşıda gözlənilən məktəb təlimi mövqeyindən uşaqlara tətbiq olunan fərdi yanaşmanın səmərəli taktikasının öz gələcək inkişafını ailədə və müəllimlərin müvafiq yanaşmasında davam etdirilməsi çox mühüm məsələdir.

Qrupda pedaqoqun müsbət emosional atmosfera yaratması uşaqlar arasında ünsiyyət mədəniyyətini möhkəmləndirir, onların dostluq kontaktları məktəb kollektivinə alışmaq üçün zəmin yaradır.

Tərbiyəçinin qrupda etibarlı və rəğbətli dostluq münasibətləri qurması üçün aşağıdakıları bilməsi zəruridir:

— bütün uşaqlara daim maraq və xeyirxah münasibət ifadə etməlidir;

— uşaqlarla ünsiyyətdə emosional ifadələr işlədir, onların fəaliyyətinə öz münasibətini bildirir ki, uşaqlar emosiyaları "oxuya" bilsinlər. Çünki bunsuz qarşılıqlı anlaşma və kontakt mümkün olmur;

— uşaqlarla öz ünsiyyətini və uşaqların bir-biri ilə ünsiyyətini xüsusi diqqət predmeti kimi qəbul etməlidir.

İdrak marağının yaradılmasının əsas şərti didaktik məşğələlər və oyunlardır. Tərbiyəçi təlimverici və inkişafetdirici təsiri uşaqların diqqətini cəlb etməklə həyata keçirir: nə etmək, görmək, eşitmək üçün göstərişlər verir, əyani üsullardan istifadə edir. Məhz məzmunun müəyyənləşdirilməsi və fəaliyyətin istiqamətiuşaqlarda maraq, praktik və əqli fəallıq oyadır, qavramanın iradiliyinin və şüurluluğunun yüksəlməsinə təsir göstərir.

Məktəbəqədər yaş dövründə tərbiyəçi uşaqların əşyalarla "görüşünü" elə təşkil edir ki, bunlar diqqəti cəlb etsin, onlarda maraq oyatsın. Pedaqoq əşyanı elə bir formada təqdim edir ki, o "özü haqqında məlumat versin", daha doğrusu, müxtəlif əlamətləri ətraflı görünsün.

Uşağın sualı təcrübəli tərbiyəçidə onun maraqlarının müəyyən istiqaməti, fikirlərinin yetkinliyi, həyat məsələlərinin dərk olunması məsələlərinə cəhd etməsi haqqında təsəvvür yaradır. Sual vermək bacarığı onu göstərir ki, uşağın diqqəti hər hansı bir hadisəni çəkir, onu müşahidə edir, onlar arasında əlaqələri qura bilir. Sualda məlum məsələ ilə yenisi arasında əlaqəni qəbul etməyə tələbat yaranır. Uşaqlar bəzən onlara məlum olan suallarla bir daha böyüklərə müraciət edirlər. Bununla onlar ünsiyyəti uzatmaq, qarşısındakının fikrini öyrənmək istəyirlər. Başqasının mövqeyi yeni suallar verməyə motiv yaradır. Sual vermək qabiliyyətini, həyat məsələlərinə maraqlı münasibəti daim mümkün qədər inkişaf etdirmək idrak fəallığının tərbiyəsi üçün zəruridir. Lakin bununla kifayətlənmək olmaz. Uşaqlarda biliklərə olan tələbatdan istifadə edərək tərbiyəçi onun maraqlarını istiqamətləndirməli və müstəqil cavab tapmaq qabiliyyətini aşılamalıdır.

Uşaqların suallarına cavab təsdiq və ya inkar formasında qəti xarakter daşımamalıdır. Onlar əşya və hadisələri daha dərindən dərk etməyə, yalnız xarici əlamətləri deyil, həm də əlaqələri görməyə kömək edən qısa söhbətlərlə müşahidə olunmalıdır. Uşağın sualına cavab həmişə konkret formada ola bilməz: onu hərdən hekayənin məzmununa daxil etmək, bədii obraz vasitəsi ilə uşağa çatdırmaq olar. Tərbiyəçi verilən suallar içərisində ən vacibini seçməyi bacarmalı və uşağın fikrini düzgün istiqamətləndirməlidir.

Uşaqlara suallarla müraciət etmək vacibdir. Uşaqlara verilən sual onun fikrini fəallaşdırır, müqayisələr, mülahizələr etməyə, qərarlar verməyə imkan yaradır. Bu, idrak fəallığını inkişaf etdirir, yeni biliklərin əldə edilməsinə tələbat yaradır.

Düzgün təşkil olunmuş təlim prosesində böyük məktəbəqədər yaşlı uşaqlar məlum biliklərdən istifadə edərək yeni fikir söyləməyi zəruri edən çətin tapşırıqları böyük məmnuniyyətlə yerinə yetirirlər.

Beləliklə, uşaqlarda idrak qabiliyyətlərini genişləndirməyə cəhd etmək, ətrafda mövcud olan əlaqə və hadisələrə müdaxilə etmək və ətraf aləmə münasibətində özünü təsdiq etmək tələbatı müşahidə olunur.

Lakin uşaqlarda informasiyaların qəbul edilməsi, nizama salınması imkanları daxil olan məlumat axınını mükəmməl təhlil etməyə imkan vermir. Ona görə də pedaqoq və valideynlərlə ünsiyyət böyük rol oynayır. Uşaq bağçasında idrak fəallığı inkişafının əsasını pedaqoqun uşaqların əqli tərbiyəsinin səmərəli metodlarının axtarışına istiqamətlənmiş

yaradıcı yanaşması və uşaqların özünün fəal idrak fəaliyyəti təşkil edir.

**Məqalənin aktuallığı.** Hazırda uşaqların məktəb təliminə hazırlığı ümumdövlət əhəmiyyətli pedaqoji problem kimi diqqət mərkəzindədir. Uşaqların məktəb təliminə hazırlanmasında onların idrak maraqlarının inkişaf etdirilməsi müasir məktəbəqədər təhsil sistemində xüsusi aktuallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Kiçik yaşlı hər bir uşaq hər şeylə maraqlanır, çoxlu suallar verir, əhatəsində olan hər şey onun üçün sanki tədqiqat obyektidir. Bunun psixoloji-pedaqoji mahiyyətini araşdırıb əvvəlki elmi əsaslarla izah edib yeni nəticələrə gəlmək məqalənin elmi yeniliyini əsaslandırır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən məktəbəqədər təhsil sahədə oxuyan bakalavr və magistrlər, həmçinin bu sahədə çalışan mütəxəssislər, ümumtəhsil məktəbinin hazırlıq sinfinin müəllimləri faydalana bilərlər.

## Ədəbiyyat

1. Kərimov Y.Ş. Uşaq bağçalarında nitq inkişafı metodikası. Bakı: Maarif, 1985.
2. Kərimov Y.Ş. Uşaq bağçası və uşaqların əqli inkişafı // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1973, № 4.
3. Bağırova L.Ş. Uşaqların məktəbə hazırlanmasının psixoloji məsələləri. Bakı: Nərgiz, 2003.
4. Ə.Ə. Qədirov, İ.N. Məmmədov. Yaş psixologiyası. Bakı: Maarif, 1986.
5. R.I. Əliyev. Altıyaşlıların təlim motivlərinin öyrənilməsi // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1987, № 3
6. Həmzəyev M.Ə. Altıyaşlıların təlimə psixoloji hazırlığı haqqında // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1985, № 4
7. Л.С. Выготски. Избранные психологические исследования. М.: Изд-во АПН РСФСР, 1995.

**П. Гасанова**

## Развития интересов мышлении у детей старшего дошкольного возраста как психологическая-педагогическая проблема

## Резюме

Деятельность мышлении имеет большое значение во всестороннем развитие детей и в формировании личности. Интересоваться со всеми и воспитание интересов мышлении проводится в общем системе умного воспитании, то есть в занятиях, играх и трудовом обучении, и не требует отдельного деятельности. Основная условия развитии интересов детей является особое знакомство происходящим вокруг ими и воспитании активных, интересных отношений.

**P. Hasanova**

# Big pre-school adult development in children of the interests of reason Psychological-pedagogy as problem

## Summary

General development of the child and importance of the activities of reason is undeniable in forming of personality. To be interested with everything and upbringing of the cognitive interests is implemented in the general system of the mental upbringing, seminars, plays, lab our training, intercourse and any special seminar does not demand. Wide acquaintance with/by events happening in the surroundings and is to educate of the active, interesting attitude in them.

**Redaksiyaya daxil olub:** 08.09.2018